# DEKABR 2018

**SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 12 / 2018-ci il**




SOCAR
POLYMER



# Missiya başa çatdırıldı

Hörmətli həmkarlar!

2013-cü ildən bəri biz uzun bir yol qət etmişik. 2017-ci ildə və daha sonra 2018-ci ilin ortalarında isə zəhmətimizin konkret bəhrələrini görməyə başladıq. Həmin dövrdə, Azərbaycan və İtaliya Prezidentlərinin iştirakı ilə baş tutan təntənəli mərasimdə Polipropilen zavodunun açılışı həyata keçirildi, YSPE zavodunun tikinti işləri isə başa çatdırılmış oldu. Ölkəmizi sənaye və iqtisadiyyat baxımından irəli aparmaqdan ibarət olan ümdə məqsədimizin həyata keçirilməsi baxımından bu il bir çox məhsuldar fəaliyyətlərlə əlamətdar oldu.  Biz bu il məqsədimizə gedən yolda əldə etdiyimiz çoxsaylı nailiyyət və əlamətdar hadisəni bayram etdik.

Mən bütün kollektivi təbrik etmək istəyirəm. Burda təkcə “SOCAR Polymer”i nəzərdə tutmuram, mən həm də Fluor, Tecnimont və Ustay şirkətlərini də qeyd etmək istəyirəm. Biz əməkdaşlıq və qarşılıqlı hörmət ideallarını yaşatmaqla birlikdə bu layihəni həyata keçirdik. Biz nümunə kimi istifadə oluna bilən bir iqtisadi model yaratdıq və ən çətin məqsədləri əldə etmək iqtidarlında olan yüksək ixtisaslı kollektiv formalaşdırmağa nail olduq.

**Yeni İlinin mübarək! Qoy qarşıdan gələn 2019-cu ildə hamımız üçün daha böyük nailiyyətlər ili olsun!**



**Farid Jafarov**

# 2018-ci İLİN XÜLASƏSİ





Azot qurğusuna elektrik enerjisi verildi




Vahid idarəetmə otağı fəaliyyətə başladı



"SOCAR Polymer" şirkətinin "Məktəbliləri ruhlandıraq" təşəbbüsü həyata keçirildi



İstehsalat təlimləri tam sürətlə davam etdi



"SOCAR Polymer" şirkətinin "Məktəbliləri ruhlandıraq" təşəbbüsü həyata keçirildi



Niderland Krallığının səfiri zavodu ziyarət etdi



Polipropilenin ilk sınaq partiyası buraxıldı




MGİMO universitetinin nümayəndə heyəti SP zavodunu ziyarət etdi



Anbardakı mexaniki-montaj işləri başa çatdı



Yanğın-qəza siqnalizasiyası sistemi istismara verildi




"SOCAR Polymer" Azərbaycan-Britaniya məktəbini ziyarət etdi



SP zavodunda yanğınsöndürmə sistemi ilə əlaqədar təlim keçirildi



"SOCAR Polymer" potensial sifarişçilərlə danışıqlar keçirdi



"SOCAR Polymer" şirkəti "Caspian European Club" təşkilatının Baş icraçı direktorunun təşk etdiyi tədbirdə iştirak etdi



"8 Mart Xəmsə" intellektual oyununda ikinci yer mükafatçıları



Avstriya nümayəndə heyəti SP zavodunu ziyarət etdi




Rusiyanın KİV nümayəndələri zavodu ziyarət etdi



Xaricdə təlimlər təşkil edildi



5 məktəbi təmsil edən 150-dən artıq məktəbli kimya elminə öz maraqlarını ifadə etdilər



Novruz xeyriyyə tədbiri keçirildi



Anbarda təlimlər keçirildi



Lisenziya sahibi laboratoriya personalı üçün təlimlər keçirdi




“SOCAR Polymer” 2018-ci il Yay Təcrübə Proqramını həyata keçirdi



Xəmsə oyununda daha bir ikinci yer əldə edildi



Məşəl bacası işə salındı




USTAY şirkəti Dünya Sağlamlıq və Təhlükəsizlik Texnikası Gününü qeyd etdi




Laboratoriyada mexaniki-montaj işləri başa çatdı




"SOCAR Polymer" Bakı marafonunda iştirak etdi



Sahədəki kimya laboratoriyası istismara verildi



Məqsədi təkmilləşmə olan istehsalat təlimləri keçirildi




"SOCAR Polymer"də SƏTƏM mədəniyyətinin aşılanması prosesi davam etdirildi



"SOCAR Polymer" dördtərəfli Anlaşma Memorandumu imzaladı




Təcrübəçilərin təqdimatları qiymətləndirildi

# PP zavodunun açılış mərasimində Azərbaycan və İtaliya Prezidentləri iştirak etdilər




















Zavodun şərqindəki yollar ixrac üçün hazır vəziyyətə gətirildi



İxrac üçün nəzərdə tutulan ilk polipropilen partiyası yola salındı



Təcrübəçilərə iş təklifləri verildi



Şirkət Qızıl Ayparanın təşkil etdiyi xeyriyyə tədbirində iştirak etdi




Dünya Keyfiyyət Günü qeyd edildi



EPC podratçısı istehsalat qəzaları nəticəsində iş vaxtının itkisi olmadan 15 milyon adam-saat həcmində işin icra olunmasını qeyd etdi

# Gəlin böyük bir fotoqrafiya və səyahət həvəskarı ilə tanış olaq



Bu gün sizi şirkətimizin İT şöbəsinin müdir müavini 33 ölkəni gəzmiş Rövşən Babaşovla tanış etmək istəyirik.

**Rövşən Babaşov 1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. Atası riyaziyyatçı idi, dəbli geyim dizayneri olan anası isə peşə məktəbində dərs deyirdi.**



Rövşən fotoqrafiya ilə məktəbin 7-ci sinfində oxuyarkən məşğul olmağa başladı. Fotoqrafiyaya olan həvəsi haqqında xəbər anasının bir həmkarına gəlib çatdı. O, eyni peşə məktəbində sənət və fotoqrafiya dərsi deyirdi. Uşağın fotoqrafiya sənəti ilə bağlı sonsuz maraq və həvəsinə heyran olan həmin müəllim ona fotokamera hədiyyə etməyi qərara aldı. Beləliklə, Rövşən uşaq və böyüklərin fotolarını çəkməyə başladı. Tezliklə o, gündəlik həyatları haqqında yaradıcı foto kadrlar gözləyən sinif yoldaşları arasında məşhurlaşdı. O, yaşadığı mənzildəki hamam otağını lentləri işləmək və fotoşəkillər çap etmək üçün emalatxanaya çevirdi. O vaxtlar valideynləri onun bu
















hobbisindən narazı idilər, indi isə anası Rövşənin bu gözəl sənət sahəsində əldə etdiyi nailiyyətlərlə fəxr edir.

Rövşən Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir. Məktəbdə sevimli fənləri tarix və ədəbiyyat idi. Məzun olduqdan sonra 1999-2004-cü illərdə orta məktəbdə fizika, riyaziyyat və kompüter elmləri üzrə dərs demişdir. Şagirdlər onu sevir və tədris tərzindən zövq alırdı, lakin məktəbdə az əmək haqqı verirdilər, arzuları isə böyük idi. Və həmin arzular Rövşəni daha çətin bir yolla inkişaf etməyə çağırdı.

2005-ci ildə Rövşən Prezidentin İşlər İdarəsinin İT şöbəsində işə başlayır. Sonra karyerasını Azərbaycan Mərkəzi Bankının İT şöbəsində davam etdirir. Texniki dəstək bölməsində yardımçı əməkdaş olaraq işə başlayan Rövşən qısa bir müddətdən sonra şöbə müdiri vəzifəsinə qədər yüksəlir.

Onun böyük səyahət həvəsi 2007-ci ildə Hollandiyada olarkən üzə çıxır. Bu ölkə öz məşhur muzeyləri və zooparkları ilə onu heyran edir. O vaxtdan bəri keçən 11 il ərzində Rövşən 33 ölkəyə səyahət etmişdir! Bu isə ildə təqribən 3 ölkə deməkdir!

Ölkəmizi xaricdə təbliğ etməyi sevdiyinə görə səyahət zamanı Rövşən tez-tez üstündə Azərbaycan yazılmış köynəklər geyinir. Ziyarət etdiyi ölkələrin hər biri özünə görə unikal olduğuna baxmayaraq ən çox xoşuna gəldiyi ölkələr Hindistan, Avstraliya və Qvatemaladır. Avstraliyada onun ən çox təbiət xoşuna gəlir; Hindistanda o, ciblərində cəmi bir dollar olan adamların səmimiyyətinə və xoşbəxt olmaq bacarığına vuruldu. Qvatemala xalqı isə çox yoxsul yaşadığına baxmayaraq hələ də həyatdan zövq alır, bu isə çox nadir bir xüsusiyyətdir. Rövşənin Birmaya səfərinin ən yadda qalan



xatirələri 3-4 gün yaşadığı monastırda tanış olduğu bir rahiblə bağlıdır. Həmin rahiblə tanışlıq ona öyrətdi ki, adam aza qane olmalı və əlindəki ilə kifayətlənməlidir. Monastırdakı rahiblərdən ilhamlanan Rövşən vəsaitlərini təhsilə və daxili dünyasının inkişafına xərcləməyə başladı. O başa düşdü ki, Yer üzündə yaşayan hər kəsin ümdə məqsədi ciblərinin doldurulması deyil, ruhunun zənginləşdirilməsi və inkişafı olmalıdır. Səyahət edərkən o, adətən yataqxanalarda və çadırlarda qalır. Məsələn, İslandiyaya səyahət zamanı o bir çadırda qalırdı.



Lap uşaqlıqdan bəri, Rövşən motosikletləri çox sevirdi və buna görə, məktəb illərində atası ona öz köhnə motosikletini sürməyə icazə verirdi. İndi Rövşənin "Ducati" markalı bir motosikleti var.

Rövşənin ən böyük arzusu Cənub Qütbünə və Alyaskaya səyahət etməkdir.





# SOCAR Polymer

## xeyriyyə aksiyasında iştirak etdi



Dekabrın əvvəllərində "SOCAR Polymer"in nümayəndələri "Azərikimya" İB-nin Respublika Qızıl Aypara Cəmiyyətinin Sumqayıt şəhər bölməsi ilə birgə təşkil olunmuş xeyriyyə aksiyasında iştirak etdilər. Tədbirin əsas məqsədi aztəminatlı ailələrin uşaqlarını, həmçinin sağlamlıq və maddi imkanları məhdud olan uşaqları isti qış geyimləri ilə təmin etməkdən ibarət idi. Tədbir "Mərhəmətli olmağa tələsin!" şüarı altında keçirildi.

Açılışda çıxış edən Respublika Qızıl Aypara Cəmiyyətinin Sumqayıt şəhər bölməsinin sədri Mətanət Məhərrəmova qonaqları salamladı və vurğuladı ki, birincisi 8 il əvvəl keçirilmiş belə tədbirlərin əsas məqsədi yardıma ehtiyacı olan aztəminatlı ailələrə və valideynlərini itirmiş uşaqlara kömək göstərməkdən ibarətdir. Mətanət Məhərrəmova öz çıxışında bu xeyirxah təşəbbüsə qoşulan və isti geyim və qış mövsümündə tələb olunan digər zəruri gündəlik ehtiyac əşyalarını təmin edən idarə, müəssisə və təşkilat rəhbərlərinə, həmçinin fərdi sahibkarlara öz minnətdarlığını







bildirdi. Budəfəki aksiyada 300-ə yaxın şəxsə kömək göstərilərək geyim və ərzaq mallarından ibarət hədiyyə bağlamaları, habelə əlil arabaları kimi zəruri lakin əlçatmaz olan vasitələr təqdim edildi.

"SOCAR Polymer" şirkətinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Sona Ramazanova və həmin şöbənin mütəxəssisi İlahə Hacıyeva xeyriyyə tədbirindən əvvəlki 2 həftə ərzində 3-20 yaşlarında olan 97 valideynsiz uşaq və yeniyetmə üçün isti ayaqqabı, üst geyimləri, şərflər, şalvarlar və digər geyimlərin satın alınmasını təmin etdilər. Qəyyum qismində çıxış edən qohumlar, məktəb müəllimləri və ya direktorları, habelə yerli sosial müdafiə təşkilatlarının nümayəndələrinin tövsiyələrinə əsasən, siyahıdakı uşaqlardan hər biri üçün hədiyyələrlə dolu ayrıca çanta hazırlandı.

Dekabrın 6-da "Azərikimya" İB-nin Sumqayıtdakı akt zalında keçirilmiş xeyriyyə tədbirində "SOCAR Polymer" şirkətini İlahə Hacıyeva və Xalidə Əlimirzəyeva təmsil edirdilər. Onlar səliqə ilə nömrələnmiş hədiyyə çantalarını adresatlara təqdim etdilər. Əşyaların bir hissəsi məhdud məlumatlar əsasında (məsələn, yalnız adresatın yaşı bilindikdə) satın alındığından, şirkət düzgün ölçüdə olmayan geyimlərin dəyişdirilməsini belə təklif etdi və 10-15 geyim dəsti mağazalarda düzgün ölçülərlə əvəz edildi.

Tədbirin təşkilatçıları bu xeyriyyə aksiyasına qoşulmuş şirkətlərə minnətdarlıq sertifikatları təqdim etdilər. Amma ən yaxşı mükafat uşaqların üzlərində çiçək açmış təbəssüm və xeyirxah hərəkətlərin istənilən adamın həyatını daha da yaxşılaşdıra biləcəyi faktının dərk edilməsi idi, xüsusən də, əgər həmin adamlar uşaqlar olarsa.







Ölçüləri uşaqlara uyğun olmayan bəzi geyimlərin dəyişdirilməsi prosesində “SOCAR Polymer”in xeyriyyəçi qrupunun üzvləri Cahandar Hacıyevlə daha yaxından tanış oldular. O, 3 yaşında ikən valideynlərini avtomobil qəzasında itirmişdir. Cahandar və onun kiçik qardaşı əmilərinin ailəsində yaşayırlar. Maraqlı bir fakt da ondan ibarətdir ki, Cahandarın babası keçmişdə Sumqayıtdakı Etilen-polietilen zavodunun işçisi olmuşdur. Cahandar isə dənizçi olmağı arzulayır. O, səyahət və sərgüzəştlər haqqında kitablar oxumağı sevir. Cahandar məktəbdə çox yaxşı oxuyur və əmisinin dediyi kimi, o, nümunəvi qardaş oğludur. Məhz buna görə Sona Ramazanova Jül Vernin "Su altında iyirmi min lyö" və Ernest Heminqueyin "Qoca və dəniz" kitablarını Cahandarın hədiyyə çantasına əlavə etmək qərarına gəldi. Qoy bütün uşaqlar qayğı ilə əhatə olunsun və qoy geniş dünyaya aparan yolda onların müdrik rəhbərləri olsun.

Bu qış bayramları ərəfəsində bir neçə adama sevinc bəxş etdiyinə görə “SOCAR Polymer”in kollektivi özünü xoşbəxt hesab edir.














# “SOCAR Polymer” əməkdaşının həyat xilas edən hərəkəti



## Məlumat üçün:

2016-2018 illər ərzində təlim kursları keçən əməkdaşların ümumi sayı 46 nəfər təşkil edir, onlardan 40 nəfəri sahədə çalışırdı.
“SOCAR Polymer”in təşkil etdiyi İlk tibbi yardım kurslarının məqsədi əməkdaşlara ilk yardımın göstərilməsi qaydalarını öyrətməkdən ibarətdir ki, təcrübəli tibbi personalı hadisə yerinə gələnə və vəziyyəti nəzarət altına alana qədər həmin əməkdaşlar travma və ya qəfil xəstəlik baş verdikdə zərərçəkənlərə ilk yardım göstərə bilsinlər.
Nəzərdə tutulur ki, kursları bitirən əməkdaşlar təcili müdaxilə tələb olunan istənilən vəziyyətdə ilk tibbi yardım göstərə, tibbi müayinə apara, huşunu itirmiş və ya itirməmiş zərərçəkənlərlə düzgün davrana, təcili tibbi yardım çağıra və ilk tibbi yardım avadanlığından düzgün istifadə edə biləcək. Kurslarda ürək tutması, ürək-ciyər reanimasiyası, fərdi qorunma vasitələrindən istifadə, iflic və boğulma hallarında davranış kimi mövzular tədris edilmişdir. Sertifikatlar ABŞ-ın Əməyin Mühafizəsi üzrə Milli Şurası tərəfindən verilmişdir.

İxtisasartırma və bacarıqların artırılması məqsədilə “SOCAR Polymer” hər il öz işçiləri üçün onlarla təlim keçirir. İşçilərin mənfəətinə qulluq edən belə mütərəqqi korporativ siyasətlərin həyata keçirilməsi çətin vəziyyətlərdə belə gözəl nəticələr verir.

Bir dekabr səhəri işə gedən “SOCAR Polymer” zavodunun Torbadoldurma konveyerinin operatoru Elvin Qasımov elə bir vəziyyətlə rastlaşdı ki, özünün ilk tibbi yardım bacarıqlarını operativ surətdə tətbiq etməli oldu. Belə ki, o, yerdə huşunu itirmiş vəziyyətdə uzanan bir adam gördü və dərhal hərəkətə keçdi. Elvin reanimasiya üsullarından istifadə edərək zərərçəkənə effektiv süni nəfəs verdi və təcili yardım hadisə yerinə yetişənə qədər huşunu itirmiş şəxsi özünə gətirdi. Hadisə yerinə gələn tibb işçiləri zərərçəkənə göstərilən yardımın keyfiyyətini yüksək qiymətləndirildi.

Elvin Qasımovun iş yerindən kənarda belə ilk yardım göstərməyə hazır olması sevindirici bir haldır və bu cür davranış bütün əməkdaşlarımız üçün nümunədir. Kollektivimizin sıralarında belə məsuliyyətli, yaxşı təlim keçmiş və ilk yardım göstərə bilən həmkarların olması bizi sevindirir.

Afərin, bu - təqdirəlayiq hərəkətdir!



Elvin Qasımov
Qablaşdırma konveyerinin operatoru



# Bayramlarınıza

## möhkəm, təhlükəsiz və kreativ plastik məmulatlarla rəng qatın

Son zamanlar bir çox internet resursu plastik məmulatlardan istifadə edilmədən keçirilən Milad və Yeni İl bayramları haqqında məlumat yayır və beləliklə də ekoloji cəhətdən təhlükəsiz bir bayram fəslini reklam edir.

Bu baxımdan mövcud olan və təklif edilən çoxsaylı variantları üç əsas qrupa bölmək olar. Dekabrın bu son həftəsi Yeni İl şənliklərinə hazırlıq tam sürətlə gedən bir zaman biz həmin variantları sizin diqqətinizə çatdırmaq istəyirik.

# Plastik məmulatlar klassikanı inkar etmir

Küknar ağacını bəzəmək üçün istifadə olunan və adətən şüşədən hazırlanan çıl-çıraqlar, şarlar, bərbəzək, küknarbaşı ulduzlar və oyuncaq fiqurlar yerə düşüb sındıqda və ya təsadüfən ayaq altında qaldıqda təhlükəli ola bilər. Şüşə oyuncaqların plastik analoqları daha ucuz olmaqla yanaşı, daha yüngül, istifadədə daha təhlükəsiz, daşınma və saxlama baxımından isə daha əlverişlidir. Bundan əlavə, yuxarıda qeyd edilmiş üstünlükləri nəzərə alaraq plastik məmulatların istifadəsinə keçid heç də şüşəyə xas olan parlaq, şəffaf və işıltılı görünüşdən imtina etmək demək deyildir. Çünki, klassik şüşə rəqibləri kimi plastikdən hazırlanman bəzək-düzəklərin də çoxlu parlaq və işıltılı nümunəsi var. Təhlükəsizlik amili isə əlavə bonus təşkil edir!



Yüngül çəkili olduqlarına görə tavandan və ya lüstrdən asılan müxtəlif konstruksiyalı plastik bəzək-düzəklər hazırlana bilər. Sındıqları zaman belə oyuncaqlar az təhlükə yaradır. Bir cüt qarmaqdan, şəffaf qaytandan və bir neçə belə oyuncaqdan istifadə etməklə çox gözəl, füsunkar və san ki, havada pərvaz edən Yeni İl küknarı yaratmaq olar!

# Tullantıdan – gözəlliyə





Etiraf etməliyik ki, ətraf mühitin ən böyük dostları təkrar emal tərəfdarı olan entuziastlardır. Belə təşəbbüskar adamlar butulka parçalarının çələnglərə, zınqırovlara, asma oyuncaqlara və müxtəlif bəzək-düzək məmulatlarına çevrilməsi üçün çoxlu yaradıcı ideyalar irəli sürür. Həqiqətən, tullantıları çox gözəl və eksklüziv məmulatlara çevirmək olar.

Yaşıl butulkalardan hazırlanmış ağac nəinki “ikinci dövrə” adlanan təkrar emalın şah əsəridir, o həm də belə ağacın yanından keçən adamlarda təəccüb doğurmağın dəbli bir üsuludur.

Uşaqlar üçün nağıl süjetli bir neçə əldəqayırma Yeni İl oyuncağına nə deyirsiniz? Məsələn, “Pringle” qutusunun plastik qapağı üstündə vitraj və ya digər qapaqlar üstündə günəş ləkələri effekti yaratmaq olar. Müxtəsər, burada sizə ilham verəcək geniş imkanlar vardır! Adi plastik qaşıq, çəngəl və fincanlardan qayırılmış cəlbedici əl işləri barədə bir düşünün!

Bakıdakı Fransız Liseyində (Lycée français de Bakou) plastik butulkalardan hazırlanmış və quraşdırılmış Yeni İl küknarı.



www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KİMYA SƏNAYESİNDƏ
YENİ ÜFÜQLƏR AÇIRIQ

SOCAR POLYMER